# Azərbaycanın müstəqilliyi xalqımızın milli sərvətidir

18 oktyabr—Dövlət Müstəqilliyi günü xalqımızın ən şərəfli günlərindən biridir. Tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Gərək sınaqlara hazır olasan, hər bir əziyyətə və çətinliyə dözməyi bacarasan.

Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan bir də 70 ildən sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz müstəqilliyini bərpa etmək imkanı verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında «Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu.

Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir cümlə yazılmışdı: «Siz «Azərbaycanın dövlət müstəqilliyi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktı»na tərəfdarsınızmı?» Səsvermə hüququ olanların 95 faizindən çoxu referendumda iştirak etdi. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

Müstəqilliyini elan etmiş Azərbaycan çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdı. Azərbaycan Respublikasını ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və başqa dövlətlər tanıdılar.

Azərbaycanın BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə de-fakto tanınmasına başlandı. Lakin müstəqilliyini qazandıqdan sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səbatsız, səriştəsiz adamların yeritdikləri səhv, xarici siyasət və daxildə gedən çəkişmələr, separatçılıq hərəkatı müstəqilliyin boğulması təhlükəsini reallaşdırdı. Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu.

Bu gün xalqımız məhz ulu öndər Heydər Əliyevin bizə bəxş etdiyi müstəqillyin firavanlığını yaşayır.

**Kamal HƏSƏNOV,**
**Qəbələdə yerləşən 24 saylı Şuşa əsas məktəbinin tarix müəllimi.**

# Müstəqilliyə aparan yollar

(Əvvəli 6-cı səhifədə).

Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə isə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb. Regionda heç bir irimiqyaslı layihə Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilmir.

Ulu öndər Heydər Əliyev məktəbinin davamçısı Prezident İlham Əliyevin məqsədyönlü iqtisadi və sosial siyasəti öz bəhrəsini verir. Son on il ərzində sənaye məhsulu istehsalı yüksək səviyyədə artmış, aqrar sektorda uğurlu nəticələr qazanılmışdır. Bu nailiyyətləri rayonumuzun timsalında daha aydın görmək olar. Qəbələ şəhəri, qəsəbə və kəndləri öz simasını tamam dəyişib, müasirləşib. Dövlət Proqramları çərçivəsində aparılan quruculuq, tikinti və abadlıq işləri sistemli şəkildə icra olunmuşdur. Bu gün də şəhərin küçə və meydanlarında, qəsəbə və kəndlərində genişmiqyaslı iş gedir, yeni-yeni binlar tikilir.

Son on ildə Qəbələdə 24 məktəbin tikilməsi, bir çox təhsil və səhiyyə müəssisələrinin əsaslı təmiri, istehsal müəssisələrinin istifadəyə verilməsi rayon əhalisinin sevincinə səbəb olmuşdur. Bütün bunlar qazanılmış müstəqilliyin bəhrələridir. Həm də xalqımızın daha firavan yaşamasında bu uğurlar mühüm rol oynayır.

**Aslan CƏLİLOV.**

# Qəbələdə qurban bayramı

Bu ilin oktyabr ayının 15 və 16-da dünya müsəlmanları islam dinində müqəddəs bayramlardan sayılan Qurban bayramını təntənə ilə qeyd etdilər. Bir olan allahın yolunda qurban kəsmə ayini islam dinindən çox-çox qədim tarixə malik olsa da dünyada hazırda mövcud olan tək allaha etiqad edilən dinlərdən yalnız islamda qalmaqdadır.

Qurban bayramının tarixi və insanlar arasında yardımlaşma, humanizm və sair ümumbəşəri dəyərləri özündə birləşdirməsi barədə qəzetimizin əvvəlki saylarında ilahiyyatçıların yazıları olduğuna görə biz qısaca olaraq rayonumuzda bu bayramın necə keçirildiyi barədə məlumat verməklə kifayətlənəcəyik.

Oktyabr ayının 15-də saat 9-da Qəbələ şəhərində və rayonun bütün qəsəbə və kəndlərinin məscidlərində Qurban bayramı münasibətilə namaz qılındı. Sonra namaza imamlıq edən din xadimləri məscidə toplaşanlara Qurban bayramı haqqında geniş məlumat verdilər. İmkanı olan hər bir müsəlmanı bu mərasimdə dinimizin tələblərinə uyğun iştirak etməyə çağırdılar.

Sonra din xadimlərinin qurban dualarının müşayətilə mərasimin bütün qaydalarına uyğun şəkildə qurbanlar kəsildi.

Qəbələ şəhər mərkəzi cümə məscidində 40-a yaxın xırda və iribuynuzlu heyvan qurban kəsildi. Məscidə qurban payı üçün gələnlərin hamısına qurban payı verildi. Bundan başqa məscidə gəlməyə fiziki imkanı olmayanların ehtiyacı olanların hamısının evlərinə qurban payı göndərildi.

Bir məsələni də qeyd etmək istəyirəm. Uzun illərdir ki, Qəbələ şəhərində Qurban bayramı mərasimlərində iştirak edirəm. Təxminən 10 il bundan əvvəl qurban payı almaq üçün məscidə gələnlərin sayı min nəfərdən çox olurdu. Sonralar insanların yoxsulluq səviyyəsi azaldıqca məscidə qurban payı almağa gələnlərin sayı ilbəil azalmağa başladı. Bu ilki mərasimdə də namaz qılmağa gələnlərin sayı artsa da, qurban payı almaq üçün dayananların sayı əvvəlki illərə nisbətən dəfələrlə az idi. Buna səbəb odur ki insanların maddi rifahı yüksəldikcə qurban kəsənlərin sayı çoxalır və nəticədə məscidə qurban payı almaq üçün gələnlərin sayı azalır. Bir faktı da qeyd edim ki, Qəbələ şəhərində 10 il öncə 50-60 nəfər həyətində qurban kəsirdisə, bu il onların sayı 500 nəfərdən çox olmuşdur. Bu faktlar son 10 ildə yoxsulluq səviyyəsinin nə qədər aşağı düşdüyünə əyani sübutdur.

**Qüdrət SƏMƏDOV.**

# Xeyirxah insan

Din tarixində dərin iz salmış Qurban bayramının əsas mahiyyəti Allah yolunda kəsilmiş qurbanlıq heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək, sevincinə şərik olmaqdır.

Qurban bayramının Həcc ziyarəti ilə eyni vaxta düşməyi bu bayramın necə müqəddəs olduğunu bir daha sübut edir. Xeyriyyəçilik fəaliyyəti ilə tanınan həmyerlimiz alim, professor Minirə Qarayeva da bu bayramda öz xeyrxahlığını unutmamışdır.

Azərbaycan naminə və xalqımızın rifahı üçün böyük səylə çalışan Minirə xanım Qarayeva bu gün "Xoş niyyət" Xeyriyyə İçtimai Birliyinin prezidentidir. Minirə xanımın rəhbərlik etdiyi bu cəmiyyət 50-dən çox yerli, xarici cəmiyyətlərlə əlaqə saxlayır. Bu əlaqələrin tarixi 90-cı illərdən başlamışdır.

Artıq 10 ildir ki, Minirə Qarayeva Qəbələ şəhərinin "Pastar məhəlləsi"ndə qurban kəsərək kasıbları sevindirir. Həmçinin Qəbələ Rayon Tarix-Diyarşunaslıq Muzeyinin kollektivini də unutmur. O, hər il olduğu kimi bu bayramda da qoyun qurbanı kəsərək kollektivə paylamışdır. Bu xeyirxah işinə görə biz ona öz minnətdarlığımızı bildirir və deyirik:—Qurbanlarınızı Allah qəbul eləsin və ömrünüz uzun olsun, Minirə müəllimə!

**Brilyant MƏLİKOVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşı.**

# Təbii qazla təmin olunan abonentlərin sayı artır

Bu ilin oktyabr ayının 1-nə olan məlumata görə ölkə üzrə təbii qazla təmin edilmiş abonentlərin sayı 1.580.474-ə çatıb.

Bunların 1.561.399-u əhali, 19.075-i qeyri-əhali abonentidir.

Həmin abonentlərin 684.154-ü Bakı şəhəri (674.291 əhali, 9.863-ü qeyri-əhali abonenti), 896.320-si regionların (887.108 əhali, 9.212 qeyri-əhali abonenti) payına düşür.

Sentyabr ayının 1-nə olan məlumata əsasən, əhali kateqoriyasına aid abonentlərin mənzillərində 793.383 ədəd "smart-kart" tipli sayğac quraşdırılıb. Cari ilin əvvəlində isə bu rəqəm 594 min təşkil edib.